# Nur şəhərinin sönməyən ulduzu

## *İsa Alimovun əziz xatirəsinə*



**Teatr hər zaman incəsənətə istedadların şöləsində böyük sənət fədailərini bəxş edib. Onlar da gecəni gündüzə qataraq, sənət naminə əllərindən gələni ediblər. Belə sənətkarlardan biri də Mingəçevir Dövlət Dram Teatrının qocaman səhnə ustası, mərhum İsa Heydər oğlu Alimovdur.**

İsa Heydər oğlu Alimov 1942-ci il iyul ayının 1-də Şəkidə anadan olub. Orta təhsilini Şəkidə bitirdikdən sonra Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun "Mədəni-maarif" fakültəsinin qiyabi şöbəsinə daxil olub və oranı fərqlənmə diplimu ilə bitirib. Bir müddət Şəki Dövlət Dram Teatrında aktyor kimi fəaliyyət göstərib.

1968-ci ildə Mingəçevir mədəniyyət sarayının nəzdində fəaliyyət göstərən Xalq teatrının bazasında Mingəçevir Dövlət Dram Teatrı yaradılıb və 1969-cu ilin martında – "Beynəlxalq Teatr Günü" ərəfəsində teatr öz pərdələrini Cəfər Cabbarlının "Almaz" pyesinin ilk tamaşası ilə açıb. Məhz həmin ildə İsa Alimov Şəki Dövlət Dram Teatrından Mingəçevir Dövlət Dram Teatrına gəlib və ömrünün sonuna kimi bu teatrda aktyor, eləçə də rejissor kimi fəaliyyət göstərib.

C.Cabbarlının "Almaz" dramında Şərif, "Solğun çiçəklər"də Bəhram, N.Qoqolun "Müfəttiş"ində Xlestakov, G.Figeyredonun "Tülkü və üzüm"ündə Ksanf, S.S.Axundovun "Eşq və intiqam"ında Çingiz, S.Vurğunun "Vaqif"ində Qacar obrazları bir aktyor kimi İsa Alimovun Mingəçevir Dövlət Dram Teatrının səhnəsində yaratdığı orijinal səpkili obrazlar silsiləsinə daxildir. Onun oynadığı rollar həmişə tamaşaçıları düşündürüb və alqışlarla qarşılanıb.

Mingəçevir Dövlət Dram Teatrının qocaman səhnə ustası, Xalq artisti Ella Yaqubova sənət dostu haqqında xatirələrini danışararaq deyib: "Mən onunla 50 il çiyin-çiyinə işləmişəm. İsa müəllim çox mehriban, sakit, sənətini sevən, kollektivdə xüsusi hörməti olan bir şəxsiyyət olub. Teatrımızda fəaliyyət göstərən gənc aktyorların yetişdirilməsində İsa Alimovun xidmətləri böyükdür. O, hər zaman gənclərin teatr studiyasına cəlb olunması üçün böyük səy göstərib. Gələcək aktyorlara səhnə texnikasından, hərəkətindən və ümumiyyətlə teatr sənətindən dərslərin keçirilməsində əməyi böyük olub. İsa Alimov hər zaman sadiq dost, səmimi yoldaş, istedadlı tərəf-müqabil kimi xatirələrdə yaşayacaq".

Mingəçevir Dövlət Dram Teatrının səhnəsində İsa Alimov 15-ə yaxın əsərə rejissor kimi səhnə həyatı bəxş edib. Onun rejissor traktofkasında hər zaman əsərin bədii ideyası tam formada öz dolğunluğu ilə diqqət mərkəzində olub.

Yazıçı-dramaturq Firuz Mustafanın eyniadlı əsəri əsasında Mingəçevir Dövlət Dram Teatrının səhnəsində hazırlanan "Vida marşı" 2 hissəli komediyası "Milli Teatr Festivalı – 2010" layihəsi çərçivəsində məhz İsa Alimovun quruluşunda böyük uğurla nümayiş olunub. Rejissor İsa Alimov bu quruluşunda müəllif ideyasına uyğun olaraq valideyn və övlad münasibətlərini, övladların doğma atalarına laqeyid baxışlarını ön plana çəkib. Rejissor öz traktofkasında xəstə atanın qeydinə qalmaq əvəzinə, mirasına sahib çıxmaq üçün onun ölümünü gözləyən tamahkar övladların xislətini acıb göstərməklə, onların ifşa olunmasını böyük ustalıqla təqdim edə bilib.

Firuz Mustafanın "Dəhliz", Q.Aslanovun "İfritə", Rober Tomanın "Tələ" və başqa əsərləri bir rejissor olaraq İsa Alimovun quruluşlarında Mingəçevir Dövlət Dram Teatrının repertuar zənginliyini təmin edib.

İsa Alimov ötən XX əsrin 90-cı illərində bir müddət teatrın direktoru vəzifəsində çalışıb, təşkilatçılıq bacarığını göstərə bilib. O, Azərabaycan Teatr Xadimləri İttifaqının üzvü kimi də fəal olub.

Alimov eləçə də mənfur düşmənlərimiz olan ermənilərin Azərbaycana qarşı yürütdüyü haqsızlığa da laqeyd qala bilməyib. O, Birinci Qarabağ müharibəsinin baş leytenant rütbəli veteranı idi.

Bir neçə il əvvəl dünyasını dəyişmiş sənət fədaisi, səmimi dost, alicənab insan olan İsa Alimov teatr ictimaiyyətinin və eləçə də tamaşaçılarının qəlbində əbədi yaşayaçaq.

***Anar Ərtoğrul BURCƏLİYEV,***
***teatrşünas-tənqidçi***

Xalq qəzeti .- 2024.- 4 avqust (№ 164).- S.10.